2 
"Arşın mal alan"

3 
"Yaşar"

4 


5 
"Yeddi gözəl"

6 
"Oqtay Eloğlu"

7 
"Lənət"

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

mart 2020 N3 (15)

# MƏDƏNİYYƏT + AFİŞA

## "Beş manatlıq gəlin"

Milli Teatr Günündə premyera 8





## Ü.Hacıbəyli — "Arşın mal alan"

8 mart (saat 19:00)

"Arşın mal alan" dahi bəstəkar Üzeyir Hacıbəylinin üçüncü və sonuncu musiqili komediyasıdır. Yazıldığı dövrdən (1913) Azərbaycan səhnəsinin bəzəyi olan, həmçinin müxtəlif xarici ölkələrdə və dillərdə tamaşaya qoyulan əsər daima tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Əbədi sevgi macərası, bütün qəhrəmanların arzuladığı yara qovuşması ilə bitən xoşbəxt sonluqlu "Arşın mal alan" bu dəfə teatrın Beynəlxalq Qadınlar Gününə hədiyyəsi olacaq.

Əməkdar incəsənət xadimi Hafiz Quliyevin quruluşunda oynanılan tamaşanı teatrın baş dirijoru Əyyub Quliyev idarə edəcək. Tamaşada Xalq artisti Gülyaz Məmmədova, əməkdar artistlər Gülüstan Əliyeva, Fərid Əliyev, İnarə Babayeva, Cahangir Qurbanov, Tural Ağasıyev, solistlər Aysel İbrahimova, Sadiq Məlikov çıxış edirlər.



## Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı

Nizami küç. 95 (012) 493 31 88

**1 mart (14:00)**
**L.Vaynştеyn – "Zoluşka" (opera)**

**2 mart (18:30)**
**"Azerbaijan Design Award"**

**11 mart (19:00)**
**S.Raxmaninov – "Aleko" (opera)**

**14 mart (19:00)**
**C.Verdi – "Aida" (opera)**

**18 mart (19:00)**
**Z.Hacıbəyov – "Aşıq Qərib" (opera)**

**28 mart (19:00)**
**Ü.Hacıbəyli – "Leyli və Məcnun" (opera)**

**29 mart (14:00)**
**Ə.Abbasov – "Qaraca qız" (balet)**
**(Bəstəkarın anadan olmasının 100 illiyinə həsr olunur)**



## Azərbaycan Dövlət Mahnı Teatrı

R.Behbudov küç. 12
(012) 493 94 15

**5 mart (18:00)**
**Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin tədbiri**

**9 mart (19:00)**
**"M.Teatr" – "Bir gecənin nağılı" tamaşası**

**10 mart (19:00)**
**"Laçın" teatr studiyası – "Arzular bağı" tamaşası**

**14 mart (18:00)**
**"Avaz" televiziya müsabiqəsi qaliblərinin yekun konserti**

**22, 23 mart (19:00)**
**Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin tədbiri "Şən və Hazırcavablar Klubu"**

**24 mart (19:00)**
**Azərbaycan Dövlət Mahnı Teatrının konserti**

**28 mart (19:00)**
**Tatarıstan İctimai Fondunun tədbiri R.Vaqapov adına tatar mahnı festivalı**

**30 mart (19:00)**
**Azərbaycan Televiziyasının Estrada festivalı**

## Bakı Musiqi Akademiyasının Opera studiyası

Ş.Bədəlbəyli küç. 98 (012) 493 74 67

4 mart (saat 20:00)




10 mart (saat 20:00)




## F.Əmirov — "Nəsimi" (balet)

25 mart (saat 19:00)



Fikrət Əmirovun 1973-cü ildə yazdığı birpərdəli balet (librettо müəllifi – Anar) dahi Azərbaycan şairi İmadəddin Nəsiminin 600 illiyinə həsr olunmuşdu. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı 2019-cu ildə – şairin 650 illiyi münasibətilə yenidən bu əsərə müraciət edib. Yeni librettonun müəllifi Əjdər Ulduz tamaşanın süjetini üç şəklə bölüb: Sufinin (Nəsiminin) gəncliyi, Sufinin səyahətləri və Sufinin edamı. Tamaşa bizə Nəsimini lirik qəhrəman yox, həqiqət axtarışında olan mütəfəkkir şair kimi təqdim edir.

Tamaşanın quruluşçu baletmeysteri Xalq artisti Kamilla Hüseynova, musiqi rəhbəri və dirijoru Xalq artisti Yalçın Adıgözəlov, geyim və səhnə tərtibatçıları Xalq rəssamı Rafiz İsmayılov və Əməkdar rəssam Nüsrət Hacıyevdir. Baletdə Anar Mikayılov (Nəsimi), İslam Məmmədov (gənc Nəsimi), əməkdar artistlər Samir Səmədov (Nəimi) və Nigar İbrahimova (Nəsiminin həyat yoldaşı), həmçinin Dinara Şirinova (Nəsiminin qızı) çıxış edirlər.

## C.Rossini — "Sevilya bərbəri"

7 mart (saat 19:00)

Gözəl Rozinaya aşiq qraf Almaviva sevgilisini görmək, ona qovuşmaq üçün hansı üsula əl atacağını bilmir. Çünki qızın hamisi Don Bazilio Rozinanı kənar şəxsin onun qapısını açmasına imkan vermir.

Deməli, qızı görmək üçün Don Bazilionun evinə sərbəst gedib-gələ bilən biri gərəkdir. Bu məqamda çoxbilmiş bərbər Fiqaro köməyə çatır.

Coakkino Rossininin məşhur operasının budəfəki tamaşasına ukraynalı artistlər – Lvov Milli Operasının aparıcı solisti, Ukraynanın Əməkdar artisti Nikolay Şulyak (Almaviva) və Odessa Akademik Opera və Balet Teatrının solisti Boqdan Pançenko (Fiqaro) da dəvət edilib.

Digər rollarda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistləri – xalq artistləri Əli Əsgərov (Don Bazilio), Əkrəm Poladov (doktor Bartolo), əməkdar



artistlər İnarə Babayeva (Rozina), Tural Ağasıyev (Fiorello) və b. çıxış edəcəklər.

Tamaşanı teatrın baş dirijoru, Əməkdar artist Əyyub Quliyev idarə edəcək.



# Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı

**Füzuli meydanı 1**

**(012) 596 62 47**

**1 mart (19:00)**
**“Samur” Ləzgi Milli Mədəniyyət Mərkəzinin tədbiri**
**Cəvahir Abdulovanın “Vətən” adlı solo konserti**

**7 mart (19:00)**
**C.Məmmədquluzadə - “Dəli yığıncağı”**

**8 mart (19:00)**
**İ.Əfəndiyev - “Mənim günahım”**

**18-22 mart**
**(11:00, 13:00, 15:00, 17:00)**
**Novruz şənlikləri**

**25 mart (19:00)**
**“Şah Mat” teatrının tamaşası**

## İ.Əfəndiyev — “Qarabağnamə”

29 mart (saat 19:00)



Xalq yazıçısı İlyas Əfəndiyevin “Hökmdar və qızı” pyesi əsasında səhnələşdirilən tamaşa Qarabağ xanlığının Rusiya imperiyası tərəfindən işğal olunduğu zamandan bəhs edir. İbrahim xanın gərgin günlər yaşadığı, Azərbaycan xanlıqlarını birləşdirmək cəhdlərinin nəticəsiz qaldığı, qızı Ağabəyim xanımın xanlığın müstəqilliyini qorumaq naminə İran şahının evlilik qərarını qəbul etdiyi mürəkkəb dönəmdə baş verən hadisələri bugünkü Qarabağ dərdi kontekstində həyəcansız izləmək olmur.

Uzun illərdir teatrın repertuarında olan, 2011-ci ildə səhnə yozumu yenilənən “Qarabağnamə”nin quruluşçu rejissoru Xalq artisti Mərahim Fərzəlibəyovdur. Tamaşada xalq artistləri Kazım Abdullayev, Rafiq Əzimov, Firəngiz Mütəllimova, Ramiz Məlik, Hacı İsmayılov, Sabir Məmmədov, Əli Nurzadə, Əjdər Həmidov, əməkdar artistlər Məsmə Aslanqızı, Anar Heybətov, Mirzə Ağabəyli, Kazım Həsənquliyev və başqaları rol alıb.

## C.Cabbarlı — “Yaşar”

6 mart (saat 19:00)



Yenilik və köhnəlik tərəfdarlarının konflikti yenidən səhnədədir. Ötən il Cəfər Cabbarlının 120 illik yubileyi münasibətilə hazırlanmış tamaşanın bədii rəhbəri Xalq artisti Azər Paşa Nemətov, quruluşçu rejissorları Mehman Fətullayev və Emil Əskərov, quruluşçu rəssamı Əməkdar mədəniyyət işçisi İlham Əsgərov, bəstəkarı Xalq artisti Siyavuş Kərimi, işıq üzrə rəssamı Rafael Həsənov, rejissor assistenti Nərmin Həsənovadır.

Baş qəhrəmanı Əməkdar artist Elnar Qarayev oynayır. Digər rollarda xalq artistləri Ramiz Məlik, Nurəddin Mehdixanlı, Əli Nurzadə, Cəfər Namiq Kamal, əməkdar artistlər Rəşad Bəxtiyarov, Məsmə Aslanqızı, Ayşad Məmmədov, Mehriban Xanlarova, Elşən Rüstəmov, Elxan Quliyev və başqaları çıxış edirlər.

## M.F.Axundzadə — “Sərgüzəşti-vəziri-xani-Lənkəran”

10 mart (saat 19:00)



147 il əvvəl, 1873-cü ilin 10 martında Azərbaycan peşəkar milli teatrının əsası məhz bu tamaşa ilə qoyulub. Mirzə Fətəli Axundzadənin maarifçi görüşləri – yaxşı hökmdar arzusu komediyada məhəbbət macərası və məişət dramının içindən keçir.

Əgər vəzir Mirzə Həbibin Teymur ağaya nifrəti olmasaydı, üstəlik, Xan da vəzirin gənc və gözəl baldızı Nisə xanımla evlənmək fikrinə düşməsəydi, yəqin bu sərgüzəşt başqa cür cərəyan edəcəkdi...

Mərhum rejissor, Əməkdar incəsənət xadimi Vaqif İbrahimoğlunun 2011-ci ildə quruluş verdiyi tamaşanın bəstəkarı Xalq artisti Siyavuş Kərimi, rəssamı Rəşid Şerifdir. Əsas rolları xalq artistləri Nurəddin Mehdixanlı, Sabir Məmmədov, Cəfər Namiq Kamal, əməkdar artistlər Mətanət Atakişiyeva, Şəlalə Şahvələdqızı, Əminə Babayeva oynayır.




## Maykl Bublenin hitləri səslənəcək

7 mart (saat 20:00)

İtalyan ifaçı Fabio Lepore kanadalı estrada müğənnisi Maykl (Michael) Bublenin məşhur hitlərini caz improvizasiyasında təqdim edəcək.



# Beynəlxalq Muğam Mərkəzi

**Dənizkənarı Milli Park** **(012) 497 89 70**

**6, 12, 30 mart (19:00)**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin tədbiri**

**17 mart (19:00)**
**“Unudulmayanlar” layihəsində xanəndə Hacı Hüsünün xatirə gecəsi**

## “Romantik caz axşamı”

8 mart (saat 20:00)

Amerikalı caz ifaçısı Ronald Beyker (Baker) Ohayo ştatının Oberlin şəhərində konservatoriyanı bitirib. 1992-ci ildə Fransaya köçüb və tezliklə məşhurlaşıb. Caz sənətinə truba ifaçısı kimi başlayan Ronald Beyker vokalçı kimi də şöhrət qazanıb.

7 solo albomu ilə “Müasir cazın ən yaxşı albomları” sırasında yer alan ifaçı ilk dəfə Bakıda caz həvəskarlarının qarşısında çıxış edəcək.

Üslubunda cəsarətli eksperimentlər edən Beyker 1950-ci illərin cazına xas olan mürəkkəb emosional mesaj və harmoniya ilə çıxış edir. O, Amerika cazının Klifford Braun və Dizzy Gillespie (truba ifaçıları), Nat King Cole (pianoçu və vokalçı) kimi əfsanəvi ifaçılarının davamçısıdır.



## "Xonçalı Novruz gəlir"

22 mart (saat 13:00)




Heydər Əliyev Sarayı Novruz bayramı tətili günlərində uşaqları maraqlı, musiqili və əyləncəli nağıl-tamaşa ilə sevindirəcək. Hər il olduğu kimi, Novruzun sevilən personajları Kosa və Keçəl şənliyin əsas simaları olacaqlar. Sevimli qəhrəmanlar uşaqlara Novruz bayramı, baharın gəlişi, Novruz çərşənbələri və digər adət-ənənələr haqda məlumat verəcək, müxtəlif oyunlar keçirəcəklər. Uşaqlar Kosa və Keçəlin məzəli deyişmələrindən ibarət səhnəcikləri, milli və müasir rəqsləri izləyə biləcəklər.

## Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti paytaxtın baş səhnəsində

13, 15, 16 mart (saat 19:00)




Korifey bəstəkar Arif Məlikovun "Məhəbbət əfsanəsi" baleti uzun illərdən sonra təntənəli şəkildə müəllifin vətəninə qayıdır. "Məhəbbət əfsanəsi"nin premyerası 1961-ci ildə Leninqrad Opera və Balet Teatrında (indiki Sankt-Peterburq Mariinsk Teatrı) keçirilib. Tamaşanın quruluşçu baletmeysteri Yuri Qriqoroviç, rəssamı Simon Virsaladze, dirijoru Niyazi olub. 1962-ci ildə balet Bakıda – Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında göstərilib. Əsər müxtəlif ölkələrin 60-dan çox teatrında nümayiş olunub.

Heydər Əliyev Sarayında yarım əsr öncəki quruluş və tərtibatda təqdim olunacaq tamaşada Akademik Opera və Balet Teatrının truppası, Azərbaycan Dövlət Rəqs Ansamblının solistləri və Bakı Xoreoqrafiya Akademiyasının tələbələri çıxış edəcəklər. Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinə Xalq artisti Yalçın Adıgözəlov dirijorluq edəcək.




## Heydər Əliyev Sarayı

Bülbül pr. 35 (012) 498 84 67

**4, 5, 6, 7, 8 mart (19:00)**
**"Bu şəhərdə" şou proqramı**

**22 mart (21:00)**
**Populyar müğənni Araşın konserti**

**25 mart (19:00)**
**Müğənni Damlanın"Dedilər" adlı solo konserti**



## Azərbaycan Dövlət Akademik Filarmoniyası

İstiqlaliyyət küç. 10 (012) 497 36 00

**4 mart (19:00)**
**Azərbaycan Xalq Çalğı Alətləri Orkestri**
**Bədii rəhbər və baş dirijor – Ağaverdi Paşayev**
**Solist – Rəvanə Qurbanova (xanəndə)**

**6 mart (19:00)**
**Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri**
**Dirijor – Mustafa Mehmandarov**
**Solist – Cəmilə Qarayusifli (violin)**

**10 mart (19:00)**
**Görkəmli xanəndə, Xalq artisti Canəli Əkbərovun 80 illiyinə həsr olunmuş yubiley gecəsi**
**Azərbaycan Xalq Çalğı Alətləri Orkestri (bədii rəhbər – Ağaverdi Paşayev)**

**13 mart (19:00)**
**Aşıq Ələsgərin xatirəsinə həsr olunmuş "Ulu Göyçəm" adlı xeyriyyə konserti**

**23 mart (19:00)**
**Novruz bayramına həsr olunan Rəqs festivalı**

**26 mart (19:00)**
**Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik orkestri (bədii rəhbər və baş dirijor – Əyyub Quliyev)**

## "Zərif dünya" adlı konsert

2 mart (saat 19:00)




8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş konsert proqramında Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və solistlər – Xalq artisti Fidan Hacıyeva (soprano), əməkdar artistlər Nərgiz Əliyarova (piano), Fəridə Məlikova (kamança), beynəlxalq və respublika müsabiqələri laureatları Oya Ergün (soprano), Natəvan Həsənova (qanun), Rəfiqə Quluzadə, Lalə Əhmədova, Cəmalə Abdinzadə (piano), Səriyyə Nəsibova, Surə Rüfət (violin) Aytən Rüstəmli (kamança), həmçinin Pikə Axundova (bəstəkar) iştirak edəcək.



## Filarmoniyanın Kamera və orqan musiqisi zalı

28 May küç. 41 (012) 493 75 37

**2 mart (15:00)**
**Niyazi adına 22 nömrəli Musiqi məktəbi şagirdlərinin konserti**

**5 mart (19:00)**
**"Gənclərə dəstək" layihəsi çərçivəsində 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş konsert**

**14 mart (19:00)**
**Hamburq xorunun konserti (Almaniya)**

## "Musiqinin rəngi" adlı konsert

6 mart (saat 19:00)




Xalq artisti, opera ifaçısı Fidan Hacıyeva və onun rəhbərlik etdiyi Vokal musiqi məktəbi tələbələrinin "Musiqinin rəngi" adlı konserti keçiriləcək. F.Hacıyeva və yetirmələrinin budəfəki musiqi axşamı 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunacaq.



## Bakı Konqres Mərkəzi

Təbriz küç. (012) 404 18 81




18 mart (saat 19:00)




8 mart (saat 19:00)

9 mart (saat 21:00)




# Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı

**Xaqani küç. 7** **(012) 493 00 63**

**1 mart (19:00)**
**R.Kuni – "Kişi, qadın, pəncərə... məşuq"**

**4 mart (19:00 – Kamera zalı)**
**A.Puşkin – "Motsart və Salyeri" (premyera)**

**6 mart (19:00)**
**Q.Səid – "Əli və Nino"**

**7 mart (19:00)**
**İ.Berqman – "Payız sonatası"**

**8 mart (19:00)**
**P.Qladilin – "Afina axşamları"**

**11 mart (19:00)**
**ƏSA teatrının tamaşası**

**13 mart (19:00)**
**C.Cabbarlı – "Sevgiyə görə bağışla" ("Aydın")**

**14 mart (19:00)**
**C.Ostin – "Qürur və qərəz"**

**15 mart (19:00)**
**Elçin – "Stalin" (premyera)**

**21 mart (19:00)**
**V.Muxaryamov – "Sürprizlər günü"**

**22 mart (19:00)**
**K.Qoldoni – "Sinyor Todero-xuliqan"**

**27 mart (19:00)**
**V.Denisov – "Sanset bulvarı"**

**28 mart (19:00)**
**Anar – "Yuxularımdan çəkil" ("Təhminə və Zaur")**

**29 mart (19:00)**
**Y.Poddubnaya – "Kraliçanın sonuncu ehtirası"**

UŞAQLAR ÜÇÜN

**1 mart (12:00)**
**V.Reznikova – "Durna balığının buyruğu ilə"**

**7 mart (12:00)**
**A.Puşkin – "Çar Saltan, knyaz Qvidon və şahzadə qu quşu haqqında nağıl"**

**8 mart (12:00)**
**V.Neverov – "Düyməcik"**

**14 mart (12:00)**
**A.Puşkin – "Ölü çariça və yeddi bahadır haqqında nağıl"**

**15 mart (12:00)**
**V.Neverov – "Gəlin, nağıla baxaq"**

**20 mart (12:00, 15:00)**
**"Ələddinin, şahzadə Jasminin və Cin-lampanın ruhunun macəraları"**

**21 mart (12:00, 15:00)**
**V.Neverov – "Nağılı tap! – 5"**

**22 mart (12:00, 15:00)**
**V.Neverov – "Düyməcik"**

**28 mart (12:00)**
**V.Neverov – "Üç donuz balası, Qırmızıpapaq və boz canavarlar"**

**29 mart (12:00)**
**V.Neverov – "Nağılı tap! – 5"**

## N.Gəncəvi – "Yeddi gözəl"

10 mart (saat 19:00)

Nizami Gəncəvinin "Yeddi gözəl" poeması əsasında hazırlanmış tamaşada dünya gözəllərinin Bəhram şaha danışdığı əhvalatlar maraqlı səhnə həlli ilə təqdim edilir. Tamaşaçını yormamaq üçün gah kölgə teatrı elementlərindən, gah da maskaların köməyindən istifadə edilib. Əsərdəki saf yeddi rəngin fəlsəfi yozumu tamaşada daha aydın açılır.



Tamaşanı teatr mübadiləsi proqramı çərçivəsində Litvadan dəvət olunmuş quruluş heyəti səhnələşdirib: quruluşçu rejissor Yonas Vaytkus, quruluşçu rəssam Arturas Şimonis, geyim üzrə rəssam Sandra Straukayke, musiqi tərtibatçısı Algirdas Martinaytisdir. Rollarda əməkdar artistlər Fuad Osmanov, Naina İbrahimova, Maqsud Məmmədov, aktyorlar Murad Məmmədov, Teymur Rəhimov, Milana Mardaxanova, Yeganə Hüseynli, Bella Safina, Olqa Arsentyeva, Oleq Əmirbəyov, Fəridə Nesterenko və b. çıxış edirlər.



## N.Qoqol – "Evlənmə"

20 mart (saat 19:00)

Dünyada rus dilində tamaşa oynayan elə bir teatr yoxdur ki, böyük rus klassiki Nikolay Qoqolun "Evlənmə" komediyasına müraciət etməsin. İllər sonra Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı da bu pyesi yenidən tamaşaya qoyub.

Tacir qızı Aqafya Tixonovnaya birdən-birə dörd nəfər elçi düşür. Əslində, könüllü elçi düşən üç nəfərdir, qızın daha çox bəyəndiyi İvan Podkolesin isə dostu Kokçarovun təkidi və araçı Fyokla İvanovnanın səyi ilə evlənməyə razılaşır. Amma sonda…

"Evlənmə"nin quruluşçu rejissoru Emin Mirabdullayev, geyim üzrə rəssamı Olqa Abbasova, tərtibatçı rəssamı Aleksandr Fyodorovdur. Tamaşada Xalq artisti Aleksandra Nikuşina, Əməkdar artist Rita Əmirbəyova, aktyorlar Bella Savina, Oleq Əmirbəyov, Teymur Rəhimov, Yuri Omelçenko, Yaroslav Trifonov, Zaur Terequlov və b. rol alıblar.

## M.F.Axundzadə – "Müsyö Jordan və dərviş Məstəli şah"

19 mart (saat 19:00)



Mirzə Fətəlinin ölməz komediyası teatrın təfsirində təkcə köhnəliklə yeniliyin, ailə dəyərlərini qorumaq adı altında cəhalətlə savadın mübarizəsi kimi deyil, həm də Qarabağ təbiətinin, məişətinin təsvir və təbliğ olunduğu səhnə əsəridir. Komediyanın məzmunu hər kəsə məlum olsa da, tamaşa yeni səhnə yozumu və aktyorların öz qəhrəmanlarına yanaşması baxımından maraqlıdır.

Səhnə əsərinin quruluşçu rejissoru Xalq artisti Aleksandr Şarovski, musiqi tərtibatçısı Əməkdar incəsənət xadimi Vaqif Gərayzadə, səhnə tərtibatçısı Xalq rəssamı Tahir Tahirov, geyim üzrə rəssamı Əməkdar incəsənət xadimi Fəxriyyə Xələfovadır. Rolları xalq artistləri Məbud Məhərrəmov, Səfa Mirzəhəsənov, Natalya Şarovskaya, əməkdar artistlər Fuad Osmanov, Salman Bayramov, Mələk Abaszadə və b. ifa edirlər.



# Nizami Kino Mərkəzi

**Bülbül pr. 20**
**(012) 493 28 18**







# Bakı Marionet Teatrı

**İçərişəhər, M.Maqomayev küç. 20**
**(012) 498 13 21**

## "Leyli və Məcnun"

28 mart (saat 20:00)



Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası əsasında hazırlanan tamaşa 2016-cı ildən Bakı Marionet Teatrının repertuarındadır. 14 pərdəli marionet tamaşası üç ilə hazırlanıb.

Tamaşanın quruluşçu rejissoru və rəssamı Tərlan Qorçu, musiqi aranjimançısı Salman Qəmbərov, kukla ustası Tengiz Xalvaşı, işıq işləri üzrə rəssam Azər Muxtarov, səhnə qurğularının müəllifi İlkin Mirzəyevdir.

## C.Cabbarlı – "Oqtay Eloğlu"

10 mart (saat 19:00)



Cəfər Cabbarlının "Oqtay Eloğlu" pyesi teatr fədailərinin, həyatını sənətsiz təsəvvür etməyən insanların həyat və sənət sevgisi barədədir. Əsərə quruluş verən Xalq artisti Vaqif Əsədov tamaşanı səhnə içində səhnə kimi quraraq əsas qəhrəmanlar – Oqtay və Firəngizin talelərinə fərqli baxışdan yanaşıb. Tamaşanın rəssamı Mustafa Mustafayev, musiqi tərtibatçısı Şamxal Novruzludur. Əsas rollarda Xalq artisti Qurban İsmayılov, əməkdar artistlər Elşən Rüstəmov, Şövqi Hüseynov, Elnur Hüseynov, Elnur Kərimov, həmçinin Günel Məmmədova, Səbinə Məmmədova, Asya Atakişiyeva, Elşən Hacıbabayev, Anar Seyfullayev və b. çıxış edirlər.

## C.Məmmədquluzadə – "Dəli yığıncağı"

29 mart (saat 19:00)

Ağıllıların, yəni normal düşünmək qabiliyyətinə malik insanların nədən dəli, dəlilərin, yəni psixi problemi olanların isə ağıllı sayıldığı cəmiyyətin düşdüyü bəlanın kökünü tapmaq niyyəti daşıyan tamaşa böyük Mirzə Cəlilin 150 illik yubileyinə sənət töhfəsidir. Tamaşanın quruluşçu rejissoru Xalq artisti Cənnət Səlimovadır. Əsərin fərqli səhnə redaksiyasının müəllifi İlqar Fəhmi, quruluşçu rəssamı Telman Şıxıyev, bəstəkarı Firudin Allahverdidir.



"Dəli yığıncağı"nda rolları xalq artistləri Yasin Qarayev, Ağaxan Salmanlı, əməkdar artistlər Şövqi Hüseynov, Nofəl Vəliyev, həmçinin Ramil Məmmədov, Aygün Fətullayeva, Anar Seyfullayev və b. ifa edirlər.



## Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı

**Nizami küç. 72 (012) 493 88 52**

**1 mart**
**A.Şaiq – "Tıq-tıq xanım" (14:00)**
**M.Füzuli – "Leyli və Məcnun" (19:00)**

**3 mart (19:00)**
**"Rebus" teatrının tamaşası – "Ürək planetinin sakinləri"**

**7 mart**
**A.Salmanlı – "Möcüzəli pillələr" (14:00)**
**Xalq artisti Xuraman Hacıyevanın 75 illik xatirəsinə ithaf**
**M.F.Axundzadə – "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (19:00)**

**8 mart**
**A.Puşkin – "Qızıl balıq" (14:00)**
**Ə.Haqverdiyev – "Pəri cadu" (19:00)**

**13 mart (19:00)**
**P.Nurəliyeva – "Mən öləndə ağlama" (kiçik səhnə)**

**14 mart**
**P.Pançev – "Dörd əkizin nağılı" (14:00)**
**İ.Zəyniyev – "Varislər" (19:00)**

**15 mart**
**H.X.Andersen – "Çirkin ördək balası" (14:00)**

**M.Servantes – "Don Kixot" (19:00)**

**19 mart (14:00, 16:00)**
**P.Culliford – "Şirinlər"**

**22 mart (12:00, 14:00)**
**Azərbaycan xalq nağılı – "Göyçək Fatma"**

**23 mart (12:00, 14:00)**
**A.Şaiq – "Danışan gəlincik"**

**24 mart (12:00, 14:00)**
**P.Nurəliyeva – "Qoğalın sərgüzəştləri"**

**25 mart (12:00, 14:00)**
**Azərbaycan xalq nağılı – "Məlikməmməd"**

**26 mart (12:00, 14:00)**
**Azərbaycan xalq nağılı – "Tənbəl Əhməd"**

**27 mart**
**T.Vəliyeva – "Cəza" (19:00, kiçik səhnə)**

**28 mart**
**C.Svift – "Qulliver Cırtdanlar ölkəsində" (14:00)**
**E.E.Şmidt – "Tanrıya 14 məktub" (19:00)**

**31 mart (19:00)**
**Anar – "Şəhərin qış gecələri"**



## A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrı

**Neftçilər pr. 36 (012) 492 64 25**

**1 mart (12:00, 14:00, 16:00)**
**Z.Rüfətoğlu – "Yeddi nar çubuğu"**

**6 mart**
**C.Barri – "Piter Pen" (12:00, 14:00)**
**Rus xalq nağılı – "Maşa və Ayı" (16:00, rus dilində)**

**7 mart**
**V.İlyuxov – "Oyaq gözəl" (12:00, 14:00)**
**"Oyaq gözəl" (16:00, rus dilində)**

**8 mart**
**N.Kazımov – "Ələddin" (12:00, 14:00)**
**Azərbaycan xalq nağılı – "Şəngülüm, Məngülüm" (16:00)**

**13 mart (12:00, 14:00)**
**L.Bomon – "Gözəl və bədheybət"**

**14 mart**
**K.Kollodi – "Pinokkionun sərgüzəştləri" (12:00, 14:00)**
**"Pinokkionun sərgüzəştləri" (16:00, rus dilində)**

**15 mart**
**Rus xalq nağılı – "Qoğal" (12:00, 14:00)**
**"Qoğal" (16:00, rus dilində)**

**19 mart**
**K.Ağayeva – "Göyçək Fatma" (12:00, 14:00)**
**C.Rodari – "Çipollino" (16:00, rus dilində)**

**20 mart**
**A.Şaiq – "Tıq-tıq və Taq-taqın nağılı" (12:00, 14:00, 16:00)**
**Rus xalq nağılı – "Maşa və Ayı" (18:00, rus dilində)**

**21 mart (12:00, 14:00, 16:00)**
**Ərəb xalq nağılı – "Əlibaba və qırx quldur"**

**22 mart**
**Rus xalq nağılı – "Turp" (12:00, 14:00, 16:00)**
**Rus xalq nağılı – "Qoğal" (18:00, rus dilində)**

**23 mart**
**M.Seyidzadə – "Cırtdan" (12:00, 14:00, 16:00)**
**M.Seyidzadə – "Üç cəsur" (18:00, rus dilində)**

**24 mart (18:00)**
**Rus xalq nağılı – "Qoğal" (rus dilində)**

**25 mart (12:00, 14:00, 16.00)**
**S.Marşak – "Pişiyin evi"**

**26 mart**
**Rus xalq nağılı – "Maşa və Ayı" (12:00, 14:00, 16:00)**
**"Maşa və Ayı" (18:00, rus dilində)**

**27 mart**
**A.Lindqren – "Karlson" (12:00, 14:00)**
**"Karlson" (16:00, rus dilində)**

**28 mart**
**Azərbaycan xalq nağılı – "Ağ babanın nağılı" (12:00, 14:00)**
**Azərbaycan xalq nağılı – "Şəngülüm, Məngülüm" (16:00)**

**29 mart**
**N.Kazımov – "Ələddin" (12:00, 14:00)**
**C.Rodari – "Çipollino" (16:00, rus dilində)**

## Ş.Perro – "Qırmızıpapaq"

24 mart (saat 12:00, 14:00, 16:00)

Şarl Perronun bu nağılı qələmə almasından üç əsrdən çox vaxt keçib, bu müddətdə əsərin neçə dəfə, neçə dildə nəşr olunduğunu, tamaşaya qoyulduğunu hesablamaq qeyri-mümkün işdir. Əsas məsələ budur ki, "Qırmızıpapaq" səhnədən düşmür, uşaqların da sonunu bildiyi bu nağıla marağı azalmır.



Azərbaycan Dövlət Kukla Teatrında məşhur nağıl fərqli versiyada təqdim edilir. Baş rejissor Qurban Məsimovun quruluş verdiyi tamaşaya Dovşan, Qarğa kimi personajlar əlavə olunub. Tamaşanın quruluşçu rəssamı Rəvanə Yaqubova, bəstəkarı Vüqar Camalzadədir.

## "Durna balığı" (rus dilində)

13 mart (saat 16:00)

21, 25 mart (saat 18:00)

Tamaşa "Durna balığının buyruğu ilə" adlı rus xalq nağılının motivləri əsasında hazırlanıb.

Teatrın rus bölməsində hazırlanan tamaşanın quruluşçu rejissoru Anar Məmmədov, quruluşçu rəssamı Əfşan Əsədovadır. Müxtəlif kukla mexanizmləri və canlı aktyor oyununun sintezindən ərsəyə gələn tamaşada balaca teatrsevərlər əsl nağıllar aləminə düşəcəklər. Rolları Rauf Babayev, Lina Məmmədova və Araz Həsənli ifa edirlər.





## Azərbaycan Dövlət Pantomima Teatrı

**Azadlıq pr. 75 (012) 441 47 56**

**1 mart (18:00)**
**B.Əhmədli – "Ağbığlılar"**

**8 mart (18:00)**
**B.Xanızadə – "Adagio"**

**21 mart (18:00)**
**N.Rüstəmov, S.Bədəlova – "Underground"**

**22 mart (18:00)**
**E.Rzayev – "Kişilər və qadınlar"**

**29 mart (18:00)**
**N.Qəribova, C.Dadaşov – "Katarsis"**

### S.Hacıyeva, B.Əhmədli – "Dejavü"

*28 mart (saat 18:00)*



...Gecədir. Qadın stulun üstündə yuxuya gedib. Qapı açılır, kişi içəri daxil olur və xanımının stulun üstündə yatdığını görür. Ehmalca onu pencəklə örtür. Bu zaman qadın oyanır və onun gəlişinə sevinir...

Səhər. Saat zəng çalır. Onlar tələsdiklərindən bir-birinin paltarını geyinirlər. Qadın kişinin pencəyindən məktub tapır və ərinin başqa qadınla olan şəkillərini görür. Mübahisə başlayır, qadın kişini evdən qovur...

Yenə gecə. Qadın stulun üstündə yatıb və üzərində pencək görünür. Qəfil yuxudan oyanır, məktubu pencəyin cibində axtarmağa başlayır... və bütün baş verənlərin yuxu olduğunu anlayır...

Tamaşanın müəllifləri və ifaçıları Səbinə Hacıyeva və Bəhruz Əhmədlidir.

### E.Rzayev – "Qoca və mələk"

*7 mart (saat 18:00)*



... Zibil qutusunu eşələyib içindən nələrisə, məsələn, salamat kitab, böyük qol saatı, kloun obrazını tamamlayan qırmızı burun, bir də qlobus çıxaran qəribə Qoca. Bir də onun bomboz, küskünlük dolu həyatına can verən, həyat eşqi bəxş edən yeniyetmə Qız. Qeyri-münasib zamanda rastlaşsalar da, bu iki insanın bir-birinə mənəvi ehtiyacı böyükdür. Bu ehtiyac ömrünün qürub çağını yaşayan Qoca ilə böyük həyatın sübh çağını xatırladan Mələyi haralara aparıb çıxaracaq?...

Səhnə əsərinin ideyası, ssenarisi və quruluşu Elnur Rzayevə, plastik həlli Xalq artisti Bəxtiyar Xanızadəyə məxsusdur. Tamaşada müəllif – Elnur Rzayev və aktrisa Leyla Atayeva çıxış edirlər.



## Şuşa Dövlət Musiqili Dram Teatrı

**S.S.Axundov küç. 6**
**(012) 561 74 55**

**1 mart (14:00)**
**Ərəb xalq nağılı əsasında – "Əlibaba və qırx quldur"**

**2 mart (19:00)**
**"Human" teatrının "Mənim" tamaşası**

**6 mart (19:00)**
**M.F.Axundzadə – "Müsyö Jordan və dərviş Məstəli şah"**

**13 mart (19:00)**
**M.F.Axundzadə – "Sərgüzəşti-vəziri-xani-Lənkəran"**

**14 mart (14:00)**
**A.Babayev – "Nağıllar aləmində"**

**21, 22, 24 mart (11:00, 13:00, 15:00)**
**X.Əlibəyli – "Dovşanın ad günü"**

**27 mart (19:00)**
**C.Məmmədquluzadə – "Anamın kitabı"**

**28 mart**
**X.Əlibəyli – "Dovşanın ad günü" (11:00)**
**C.Cabbarlı – "Solğun çiçəklər" (15:00)**

### A.Şaiq – "Danışan gəlincik"

*7 mart (saat 11:00); 15 mart (saat 14:00)*



Abdulla Şaiqin bu əsəri həm də böyüklər üçündür. Necə etmək lazımdır ki, uşaq xoşbəxt böyüsün? Uşağın dostu varsa, öz yaşıdından mehribanlıq görürsə, yaxşı davranış nümunələri ilə əhatə olunursa, o zaman şəxsiyyət kimi yetişə bilər.

"Danışan gəlincik" tamaşasının quruluşçu rejissoru Əməkdar artist Loğman Kərimov, rəssamı Valeh Məmmədov, musiqi tərtibatçısı Əməkdar artist Azad Məmmədovdur. Rolları Zəhra Salayeva, Nigar Məmmədova, Günel İmanova, Püstəxanım Zeynalova, Aybəniz Cahangirova və başqaları ifa edirlər.

### V.Klim – "Medeya sekvensiya"

*14 mart (saat 19:00)*



Qədim yunan ədəbiyyatından üzü bəri dramaturqların və teatrların Medeya sevgisi tükənmir. Lakin V.Klimin "Medeya sekvensiya" əsərinin mövzusu bir qədər fərqlidir. Söhbət teatrda Medeya roluna iddialı iki aktrisanın münasibətindən gedir. Ömür boyu Medeya rolunda oynamağın həsrətini çəkmiş yaşlı aktrisa həmin rolun daha cavan aktrisaya verildiyi xəbərindən sarsılır. İki aktrisa arasında səhnə arxasında başlayan konflikt səhnədəki tamaşadan daha gərgin keçir.

Rejissor Mikayıl Mikayılovun quruluş verdiyi tamaşada əməkdar artistlər Sonaxanım Mikayılova və Gülzar Qurbanova çıxış edirlər.

### V.Şekspir – "Lənət"

*29 mart (saat 19:00)*



Vilyam Şekspirin "III Riçard" pyesi əsasında hazırlanan tamaşada insanların hakimiyyət hərisliyinin səbəbinə, "insan niyə lənətlənməkdən qorxmadan bütün bunları edir?" sualına cavab axtarılır.

Tamaşaya bolqarıstanlı rejissor Xristo Stoyçev quruluş verib. Tamaşanın rəssamı da Bolqarıstandan dəvət edilmiş Olqa Bosyeva, rejissoru Günay Səttarovadır. Səhnə əsərində əməkdar artistlər Sonaxanım Mikayılova (Marqarita) və Qasım Nağı (Bekingem), aktyorlar Oqtay Mehdiyev, Vüqar Hacıyev (Riçard), Elgün Həmidov (Bekingem), Natəvan Qeybani (Marqarita), Zümrüd Qasımova və Təranə Ocaqverdiyeva (Kraliça Yelizaveta) çıxış edirlər.




## Yuğ Dövlət Teatrı

**Neftçilər pr. 36**
**(Kukla teatrının binası)**
**(012) 492 64 25**

**1 mart (19:00)**
**İ.Fəhmi – "Mənəm... mən"**

**7 mart (19:00)**
**R.Akutaqava – "Müəmmalı bir qətlin üç versiyası"**

**10 mart (19:00)**
**M.Vişnyak – "Kloun BizzZ"**

**15 mart (19:00)**
**S.Haqverdiyeva – "Metamorfoza"**

**29 mart (19:00)**
**İ.Fəhmi – "Mənəm... mən"**



## Heydər Əliyev Mərkəzi

**Heydər Əliyev pr. 1 (012) 505 60 01**




*29 mart (saat 20:00)*

Dünya şöhrətli caz müğənnisi, beş dəfə “Qremmi” mükafatı sahibi Dayan Rivs (Dianne Reeves) Heydər Əliyev Mərkəzində konsert verəcək. Müğənni ən yaxşı simfonik orkestrlər və caz qrupları ilə əməkdaşlıq edib, Berlin Filarmoniya Orkestrinin solisti, Los Anceles Filarmoniyasının caz üzrə ilk bədii rəhbəri olub. 2018-ci ildə ABŞ-ın Milli İncəsənət Fondu Dayan Rivsi ABŞ-da caz ifaçıları üçün ən yüksək təltifə – «Caz ustası» (“Jazz Master”) adına layiq görüb.




*14 mart (saat 19:00)*

Baltikyanı ölkələrin musiqiçilərindən ibarət “Kremerata Baltika” orkestrinin (bədii rəhbər – skripkaçı Gidon Kremer) fransız pianoçu Lyuka Debarq ilə birgə konsert proqramında Ferens List, Kşiştof Penderetski, Meçislav Vaynberq və Miloş Maginin əsərləri təqdim ediləcək.

## R.Hacıyev – “Qafqazlı qardaşqızı” (rus dilində)

*6 mart (saat 19:00)*



Görkəmli bəstəkar Rauf Hacıyevin “Qafqazlı qardaşqızı” lirik komediyası əlli ildir ki, səhnədən düşmür. Yeni qurulacaq ailəyə qazanc mənbəyi kimi baxan Cavanşirov və Bəbirli kimi insanlarla qarşılıqlı sevgiyə üstünlük verən gənclərin (Lalə, Arif, Natəvan və Buba) konflikti üzərində qurulmuş tamaşa xoşbəxt sonluqla bitir. Lakin qəhrəmanları buna aparan yol heç də hamar deyil…

Əməkdar incəsənət xadimi Alik Usubovun quruluş verdiyi tamaşanın rəssamı Dmitri Çerbaci, baletmeysterləri əməkdar artistlər Yelena və Zakir Ağayevlərdir. Rolları Xalq artisti İlham Namiq Kamal, əməkdar artistlər Nərgiz Kərimova, Səidə Şərifəliyeva, Svetlana Bulax, Boris Qrafkin və b. oynayır.

## Ə.Səmədli – “Toya bir gün qalmış”

*28 mart (saat 19:00)*



Əli Səmədlinin “Toya bir gün qalmış” komediyası bir ailənin timsalında insanların maddi rifah naminə mənəvi dəyərlərin üstündən necə keçməsindən bəhs edir. Oğlunun toyuna bir gün qalmış vəzifəli şəxs dünyasını dəyişir. Onun həyat yoldaşı isə bunu hamıdan gizləməyi qərara alır. Düşünür ki, ərinin ölümü toyun təxirə salınması ilə yanaşı, onların bir sıra maraqlarına da zərbə vurar. Ailə hazırlıqlarını davam etdirir. Və qəfildən “ölü” ayılır. Əsl həngamə də bundan sonra başlayır...

Tamaşanın quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Əsgər Əsgərovdur. Baş rolları Xalq artisti Afaq Başirqızı və Əməkdar artist Ələkbər Əliyev oynayır.

## S.Rüstəmov, M.S.Ordubadi – “Beş manatlıq gəlin”

*10 mart (saat 19:00 – premyera)*



Milli Teatr Günündə sənətsevərlərə yeni tamaşa təqdim olunacaq. Bəstəkar Səid Rüstəmov və yazıçı-dramaturq Məmməd Səid Ordubadinin birgə ərsəyə gətirdiyi, 1940-cı ildən müxtəlif quruluşlarda Akademik Musiqili Teatrının repertuarında yer almış “Beş manatlıq gəlin” səhnəyə qayıdır.

Əməkdar incəsənət xadimi Əsgər Əsgərovun quruluş verdiyi tamaşada xalq artistləri İlham Namiq Kamal, Fatma Mahmudova, əməkdar artistlər Novruz Əliyev, Ələkbər Əliyev, Nadir Xasıyev, İqrar Salamov, aktyorlar Möylə Mirzəliyev, Ağaxan Şərifov, Gülcahan Salamova, Ülviyyə Əliyeva, Mehriban Zalıyeva və başqaları iştirak edəcəklər. Tamaşanın quruluşçu dirijoru Əməkdar incəsənət xadimi Fəxrəddin Atayev, quruluşçu baletmeysterləri əməkdar artistlər – Zakir və Yelena Ağayevlər, xormeysteri Əməkdar artist Vaqif Məstanov, quruluşçu rəssamı Əməkdar rəssam Nabat Səmədovadır.



## Azərbaycan Dövlət Akademik Musiqili Teatrı

**Zərifə Əliyeva pr. 8 (012) 498 13 21**

**1 mart (19:00)**
**O.Kazımi, R.Heydər – “Qızıl toy”**

**7 mart**
**Ş.Perro – “Yatmış gözəl və cırtdanlar” (12:00)**
**F.Sücəddinov, T.Vəliyeva – “Mən dəyərəm min cavana” (19:00)**

**8 mart**
**E.Sabitoğlu, E.Şvarts – “Qırmızıpapaq” (12:00, rus dilində)**
**İ.Sadıqov – “Molla Nəsrəddinin beş arvadı” (19:00)**

**13 mart (19:00)**
**Ü.Hacıbəyli – “Ər və arvad”**

**14 mart**
**A.Xayt, A.Kurlyandski – “Bir dayan, canavar!” (12:00, rus dilində)**
**S.Rüstəmov, M.S.Ordubadi – “Beş manatlıq gəlin” (19:00)**

**15 mart**
**O.Zülfüqarov, R.Heydər – “Dəcəl çəpişlər” (12:00)**
**V.Hüqo –“Paris Notr-Dama ithaf” (19:00)**

**20 mart (19:00)**
**Ü.Hacıbəyli – “O olmasın, bu olsun”**

**21 mart**
**Novruz şənliyi (12:00)**
**Ü.Hacıbəyli – “O olmasın, bu olsun” (19:00)**

**22 mart**
**Novruz şənliyi (12:00)**
**Ü.Hacıbəyli – “Arşın mal alan” (19:00)**

**23 mart**
**Novruz şənliyi (12:00)**
**Ü.Hacıbəyli – “O olmasın, bu olsun” (19:00)**

**24 mart (19:00)**
**Ü.Hacıbəyli – “O olmasın, bu olsun”**

**25 mart (19:00)**
**Ü.Hacıbəyli – “Arşın mal alan”**

**27 mart (19:00)**
**İ.Kalman – “Silva” (rus dilində)**

**28 mart (12:00)**
**Rus xalq nağılı – “Qoğal” (rus dilində)**

**29 mart**
**A.Rıbnikov, A.Tolstoy – “Buratino” (12:00)**
**Elçin, F.Allahverdi – “Baladadaşın toy hamamı” (19:00)**

MƏDƏNİYYƏT + AFİŞA

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Moskva pr, 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 530 34 38
“Azərbaycan” nəşriyyatında çap olunub
**Tiraj:** 5000 **Sifariş:** 731
Pulsuz yayılır

**Buraxılışa məsul:** Fariz Yunisli